

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 178 (23.590)

17 oktyabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Xocavənd rayonunun Xırmancıq, Ağbulaq, Axullu kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Türkiyənin “A Haber” televiziya kanalına müsahibə verib.

Müsahibədə Azərbaycan Ordusunun uğurlu döyüş əməliyyatlarından danışan Ali Baş Komandan Hadrut qəsəbəsinin, Füzulinin ətrafındakı kəndlərin mütləq əksəriyyətinin işğaldan azad edildiyini, ordumuzun cənub istiqamətində də irəlilədiyini, Şimalda Murovdağ mövqelərinin, Suqovuşanın azad olunduğunu bildirib. Dövlətimizin başçısı məqsədimizin ərazi bütövlüyünü tam bərpa etmək və Azərbaycan bayrağını işğal edilmiş bütün torpaqlarda qaldırmaq olduğunu vurğulayıb.

Müsahibədə Ermənistanın faşizm siyasəti aparmasına, Türkiyəyə, Azərbaycana nifrət aşılamasına, uşaqlara türkləri düşmən kimi qələmə verməsinə, Ermənistanın işğalçılıq siyasətinin bundan ibarət olmasına da münasibət bildirilib.



## “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının Şərur Əməliyyat Taboru üçün yeni kompleks tikilib



Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının Şərur Əməliyyat Taboru üçün yeni xidmət və yaşayış kompleksi tikilmişdir.

Oktyabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Şərur Əməliyyat Taborunda olmuş, görülən işlərlə maraqlanmışdır.

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov Ali Məclisin Sədrinə raport vermişdir.

Ali Məclisin Sədri şəxsi heyəti salamlamışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov çıxış edərək demişdir: Azərbaycan Ordusunun yaranması və bugünkü inkişafı ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik fəaliyyətinin nəticəsidir. ***“Güclü, qüdrətli ordu Azərbaycanın dövlət müstəqilliyini əbədi etmək, ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün əsas amildir, respublikamızın sülh və əmin-amanlıq şəraitində yaşamasının təminatıdır”***, – deyən ulu öndər ölkəmizə hər iki rəhbərliyi dövründə dövlət müstəqilliyinin təminatçısı kimi ordu quruculuğuna xüsusi diqqət yetirmişdir. Ulu öndərimizin ordu quruculuğu sahəsində başladığı işi ölkə Prezidenti cənab İlham Əliyev uğurla davam etdirir. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında müdafiə təhlükəsizliyinin və sabitliyin təmin olunması sahəsində ardıcıl tədbirlər görülür. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin muxtar respublikadakı ordu, birləşmə və hissələri kimi, Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası da böyük təşkilatlanma və inkişaf yolu keçmişdir. 1995-ci il aprelin 10-da Daxili Qoşunların Naxçıvan Taboru yaradılmış, 2002-ci ildə tabor alaya, 2014-cü ildə isə Əlahiddə Əməliyyat Briqadasına çevrilmişdir.



Qeyd olunmuşdur ki, ötən dövrdə briqadada qarşıya qoyulan vəzifələrin icrasında və ictimai asayişin qorunmasında xidməti təcrübə toplanmış, hərbi qulluqçuların döyüş hazırlığı artırılmışdır. Şəxsi heyətin xidmət və məişət şəraiti yaxşılaşdırılmış, maddi-texniki baza möhkəmləndirilmiş, Naxçıvan şəhərində briqada üçün müasir hərbi şəhərcik istifadəyə verilmişdir. Şərur Rayon Taboru üçün yeni xidmət və yaşayış kompleksinin istifadəyə verilməsi də bu sahədə görülən işlərin davamıdır.

Ali Məclisin Sədri ulu öndərimiz Heydər Əliyevin ***“Dövlət quruculuğu prosesində daxili qoşunların düzgün istiqamətdə təşkil olunması çox əhəmiyyətli məsələdir”*** fikirlərini xatırladaraq demişdir: Bu gün muxtar respublikada ictimai asayişin və təhlükəsizliyin qorunması, cinayətkarlığa qarşı mübarizə Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının əsas vəzifələridir. Ona görə də briqadada idarəçilik xidmət qaydalarına uyğun qurulmalı, əsgər və zabitlər verilən əmr və göstərişlərin icrasına hər an hazır olmalıdırlar. Hər bir ölkənin inkişafının təmin olunmasında, müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsində milli birlik, sabitlik və əmin-amanlıq vacib şərtdir. Daxili Qoşunların “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadasının şəxsi heyəti də muxtar respublikamızda sabitliyi qorumalı, eyni zamanda Naxçıvan Qarnizonu üzrə keçirilən təlimlərdə iştirak etməli, döyüş hazırlığını artırmalıdır. Hərbi qulluqçular vəzifə borclarını dərindən öyrənməli, silah və texnikalardan istifadə imkanlarını yaxşı mənimsəməli, muxtar respublikanın müdafiəsinə hazır olmalıdırlar. Hərbi xidmətin əsasında intizam dayanır. Şəxsi heyət daxili nizam qaydalarına ciddi əməl etməli, qarşıya qoyulan vəzifə və tapşırıqlar uğurla yerinə yetirilməlidir.





Ali Məclisin Sədri demişdir: Bu gün blokada şəraitində və işğalçı ölkə ilə sərhəddə yerləşməsinə baxmayaraq, muxtar respublikadakı birlik, vətənpərvərlik torpaqlarımızın etibarlı müdafiəsinə və toxunulmazlığına tam təminat verir. Vətənpərvərlik isə

Ardı 2-ci səhifədə





mücərrəd anlayış deyil. Ulu öndərimiz deyirdi ki, *“Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir”.* Əsl vətənpərvərlik odur ki, hər an Vətənin müdafiəsinə və onu qorumağa hazır olasan. Muxtar respublikadakı xalq-ordu birliyi, insanların vətənpərvərliyi bizi qürurlandırır.

Ali Məclisin Sədri ölkə üzrə elan olunmuş qismən səfərbərlikdə muxtar respublikadan iştirak edən və çağırışı böyük ruh yüksəkliyi ilə qarşılayan hər bir şəxsə, eləcə də təsərrüfatlarında yetişdirdikləri və istehsal etdikləri məhsullardan hərbi hissələrə sovqat aparan, əsgərlərimizlə görüşən və həmrəylik nümayiş etdirən muxtar respublika sakinlərinə təşəkkürünü bildirmişdir.

Həmçinin Ali Məclisin Sədri ərazi bütövlüyümüz uğrunda gedən döyüşlərdə şəhid olanlara Allahdan rəhmət, şəhid ailələrinə isə səbir diləmiş, yaralananların tezliklə sağalmasını arzulamış, çıxışını ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin fikirləri ilə tamamlamışdır: ***“Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək”.***

Naxçıvan Muxtar Respublikasının Daxili İşlər naziri, general-leytenant Fazil Ələkbərov çıxış edərək demişdir ki, muxtar respublika blokada şəraitində yaşamasına baxmayaraq, ulu öndərimiz Heydər



Əliyevin ideyalarına söykənən idarəetmənin məntiqi nəticəsi olaraq bütün istiqamətlər üzrə hərtərəfli inkişaf yolu keçir. Muxtar respublikanın təhlükəsizliyi, müdafiə qabiliyyəti, eləcə də sarsılmaz xalq-ordu birliyi çərçivəsində möhkəmlənən milli vətənpərvərlik ruhu ən yüksək səviyyəyə çatmış, bütün sahələrdə dinamik inkişaf sakinlərin rahat və firavan şəraitdə yaşamasına səbəb olmuşdur. Muxtar respublikada hərtərəfli dövlət qayğısı ilə əhatə olunan Silahlı Qüvvələrin digər birləşmə və bölmələri kimi, Əlahiddə Əməliyyat Briqadasının da xidməti-döyüş hazırlığının yüksəldilməsi daim diqqətdə saxlanılmış, hərbi hissələrin maddi-texniki bazası ilbəil gücləndirilərək müasirtipli silah-sursat və nəqliyyat vasitələri ilə təchiz olunmuşdur. Ali Məclis Sədrinin tapşırıq və tövsiyələri əsasında briqadanın fəaliyyətinin təşkili və idarə olunması istiqamətində məqsədyönlü tədbirlər görülərək, təşkilati-ştat strukturu mövcud əməliyyat şəraitinə uyğun yenidən komplektləşdirilmiş, hərbi hissələrin yerləşdiyi ərazidə geniş quruculuq işləri aparılaraq müasir infrastruktur və nümunəvi hərbi şəhərcik yaradılmışdır. Fazil Ələkbərov yaradılan yüksək şəraitə görə şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir ki, “Naxçıvan” Əlahiddə Əməliyyat Briqadası



ərazi bütövlüyümüzün qorunması uğrunda Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hər an hazırdır.

Baş leytenant Elçin Qurbanov demişdir: “Ali Məclis Sədri tərəfindən daxili qoşunların şəxsi heyətinə göstərilən diqqət və qayğı, yaradılan şərait, muxtar respublikamız üçün görülən işlər göz önündədir. Döyüş hazırlığı nümayiş etdirərək hər an əldə silah Vətənin müdafiəsinə hazırıq. Ali Məclis Sədrinin dediyi kimi, ***“Hər kəs çalışdığı sahədə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməli, dövlətçiliyimizin möhkəmlənməsinə töhfə verməlidir. Çünki dövlətçiliyin möhkəmlənməsi ölkənin davamlı inkişafı və sabitliyi deməkdir”.*** Muxtar respublikanın inkişafı üçün yürüdülən ardıcıl siyasət bizi daha da ruhlandırır.Yaradılan şəraitə görə hərbi hissənin şəxsi heyəti adından minnətdarlığımızı bildirir və əmin edirik ki, Ali Baş Komandanın əmr və göstərişlərini yerinə yetirməyə hər an hazırıq. Bizim bir amalımız var: Dövlət və dövlətçiliyə sədaqət, Vətən uğrunda canımızı əsirgəməmək. Xalqımıza qələbə əzmini yaşatmaq üçün əmr gözləyirik”.

Şəxsi heyət “Hamı bir nəfər, bir nəfər hamı üçün!” şüarını səsləndirmişdir.

Sonra əsgəri-məişət kompleksinə baxış olmuşdur.

Məlumat verilmişdir ki, 5 hektar sahəni əhatə edən əsgəri-məişət kompleksinin tikintisinə 2014-cü ildə başlanıb. Kompleksdə yerləşən inzibati bina 5 mərtəbədən ibarətdir. Binanın birinci mərtəbəsində qərargah və tibb məntəqəsi, digər dörd mərtəbədə 448 yerlik əsgər yataqxanası, zirzəmidə isə xüsusi əşya və vasitələr anbarı, eləcə də idman zalı vardır. 2 mərtəbəli yeməkxana binasında anbarlar və qazanxana, 252 yerlik yemək zalı və xidməti otaqlar yerləşir.

Ərazidə 10-u bağlı olmaqla, 52 yerlik avtomobil və zirehli texnika saxlancı, avtomobilyuma, təmir, yanacaqdoldurma və texniki nəzarət məntəqələri, eləcə də sürücülərin hazırlığı üçün sinif otağı vardır. Həmçinin kompleksdə qarovul binası, silah-sursat anbarları, hamam-camaşırxana, helikopter meydançası, 2 nəzarət-buraxılış məntəqəsi, idman və qarovul şəhərcikləri, maneələr zolağı, 3 istirahət guşəsi və uşaq-



əyləncə meydançası tikilmiş, ərazi çəpərlənmişdir.

Ali Məclisin Sədri xüsusi təyinatlıların istifadəsində olan silah və texnikalara baxmış, zabit-gizir ailələri ilə görüşmüşdür.

Ali Məclisin Sədri demişdir: “Əsgəri-məişət kompleksində həm ailələrin yaşayışı, həm də şəxsi heyətin öz xidmətlərini düzgün təşkil etmələri üçün lazımi şərait yaradılıb. Xidmət o zaman uğurlu olur ki, hərbi ailələrinin rahat yaşayışı təmin edilsin. Ərazidəki yaşayış binası, məktəb və xidmət sahələri buna imkan verəcəkdir. Yaşayış binasındakı mənzillərin hər biri lazımı avadanlıqlarla təmin olunub. Burada bir ailə kimi yaşamalı, təmizliyə, hərbi nizam-intizama riayət etməlisiniz”.

Hərbi qulluqçuların ailələri adından çıxış edən Günel Mirzəyeva demişdir: “Yaradılan şərait imkan verir ki, hərbi xidmətdə olan ailə başçılarımız öz xidmətlərini rahat yerinə yetirsinlər. Müharibə şəraitində yaşadığımız bu dövrdə Vətənimizin hər qarış torpağı uğrunda əzmlə mübarizə aparsınlar. Mən hərbçi ailəsində doğulmuşam. Atam hərbçi olub. Qardaşım da atamın yolunu davam etdirir. Biz inanırıq ki, torpaqlarımız azad olunacaq. Biz hərbçi ailələri olaraq Ali Baş Komandanımızın və Sizin ətrafınızda sıx birləşmişik. Qələbə bizimlədir”.

Hərbçi övladı, tələbə Nərmin Aydınlı minnətdarlıq edərək demişdir: “Muxtar respublikada istər təhsil, istər səhiyyə, istərsə də ordu quruculuğu sahəsində böyük işlər görülür. Xüsusilə də dünyanı bürüyən pandemiyanın qarşısının alınması məqsədilə görülən tədbirlər təqdirəlayiqdir. Bu gün Azərbaycan Ordusu uğurlu əməliyyatlar həyata keçirir. Tezliklə qələbə bizim olacaq. Zəfər bayrağımız Qarabağda dalğalanacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Hərbçi övladı Zeynəb Mirzəzadə Ali Məclisin Sədrinə yazdığı şeiri söyləmişdir.

Sonra uşaqlara hədiyyələr təqdim olunmuş, hərbçi ailələri ilə xatirə şəkli çəkdirilmişdir.

Baxış zamanı bildirilmişdir ki, zabit-gizir ailələri üçün tikilmiş 5 mərtəbəli xidməti yaşayış binasında 6-sı birotaqlı, 20-si ikiotaqlı, 4-ü üçotaqlı olmaqla, 30 mənzil vardır. Binada subay hərbi qulluqçular üçün 20 yerlik yataqxana və məişət otaqları da yerləşir.

Gizir Oktay Əliyev minnətdarlıq edərək demişdir: “Muxtar respublikanın inkişafı göz önündədir. Yaradılan şərait Qurucu Rəhbərimizin əməyi sayəsində mümkün olmuşdur. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin göstərdiyi diqqət və qayğı nəticəsində ordumuz gündən-günə güclənir və inkişaf edir. Aprel döyüşləri, Günnüt kəndinin və hazırda işğal altında olan torpaqlarımızın bir hissəsinin azad edilməsi bunun bariz nümunəsidir. Verilən əmr və tapşırıqları layiqincə yerinə yetirməyə hazırıq”.

Hərbçi ailəsinin üzvü Sahilə Zeynalova demişdir: “Muxtar respublikanın rayon və şəhərləri gündən-günə çiçəklənir, abadlaşır. Görülən işlərdən hərbi hissələrə də pay düşür. Yaradılan şərait imkan verir ki, hərbi xidmətdə olan ailə başçılarımız öz xidməti vəzifələrini əzmlə yerinə yetirsinlər. Biz də hərbçi ailələri olaraq onlarla çiyin-çiyinə

*Ardı 3-cü səhifədə*

torpaqlarımızın müdafiəsinə hazırıq".

Selcan Əlizadə yeni mənzillərinin sevincini vətənpərvərlik ruhunda söylədiyi şeirlə ifadə etmişdir.

Ali Məclisin Sədri yeməkxanada olmuş, şəxsi heyətin qidalanması ilə maraqlanmışdır.

Aşpaz Sevinc Müslümova demişdir: "Hərbi hissədə şəxsi heyətin qidalanması və sağlamlıqlarının qayğısına qalınır. Yaradılan şərait bizi də qürurlandırır. Çalışırıq ki, dövlətimizin göstərdiyi qayğıya öz işimizlə cavab verək. Hərbçilərimizlə fəxr edir və onlara övladımız kimi qayğı göstəririk".

Ali Məclisin Sədri şəxsi heyətlə nahar etmişdir.

Zabit-gizir ailələrinə xalça hədiyyə edilmiş, Ali Məclisin kollektivi adından gətirilmiş sovqat anbara təhvil verilmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**





# Müstəqilliyimiz daimidir, əbədidir

*XX əsrdə iki dəfə öz müstəqilliyini elan edən Azərbaycanda Xalq Cümhuriyyətinin yaradılması ilə ölkəmizin adı Şərqin və Türk dünyasının tarixinə ilk respublikanın quruldugu ölkə kimi düşmüşdür. Lakin təəssüf ki, bu respublika cəmi 23 ay fəaliyyət göstərmiş, Azərbaycan XX əsrin sonlarında ikinci dəfə müstəqillik əldə etmişdir.*

Ümummilli lider Heydər Əliyev hələ sovet totalitar rejiminin tüğyan etdiyi dövrlərdə böyük uzaqgörənliklə Azərbaycanın gələcək müstəqilliyi üçün mühüm hərbi, iqtisadi, sosial, ideoloji tədbirlər həyata keçirmiş, milli müstəqillik konsepsiyası ulu öndər tərəfindən işlənib hazırlanmışdır.

***"Müstəqilliyə nail olmaq və həyatın bir çox sahələrində köklü dəyişikliklər etmək çox çətin və məsul bir prosesdir. Müstəqilliyi elan etmək, onun qorunması və möhkəmləndirilməsi istiqamətində dövlət tədbirləri həyata keçirmək nə qədər vacib olsa da, əsl müstəqilliyi qazanmaq üçün bu, hələ azdır. Gərək hər bir insan və xüsusən gənc nəsil müstəqilliyin nə qədər müqəddəs olduğunu bütün varlığı ilə dərk etsin, onu qorumaq və möhkəmləndirmək üçün hazır olsun"***, – deyən görkəmli dövlət xadimi Heydər Əliyev 1990-cı ilin iyul ayında Naxçıvana gəldikdən sonra burada dövlət müstəqilliyi uğrunda məqsədyönlü siyasi mübarizə aparmışdır. 1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin ulu öndərin sədrliyi ilə keçirilən ilk sessiyasında Azərbaycanın müstəqilliyi baxımından son dərəcə böyük əhəmiyyətə malik olan taleyüklü qərarlar qəbul edildi. Sessiyada Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarıldı, Naxçıvan MSSR Ali Soveti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırıldı. Milli istiqlal rəmzi olan üçrəngli bayrağımız ilk dəfə bu sessiyanın tarixi qərarı ilə Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edildi, həmin bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət qaldırıldı. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyasında Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən mühüm məsələlər – 1990-cı il 20 Yanvar faciəsi və Dağlıq Qarabağ münaqişəsi də müzakirə edildi. 31 dekabrın "Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi qeyd olunması ilə bağlı tarixi qərar qəbul olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırıldı, onun bütün strukturları ləğv edildi. Rus qoşun hissələri muxtar respublikadan çıxarıldı, Naxçıvan Muxtar Respublikasının müdafiəsi üçün sistemli tədbirlər görüldü, ölkəmizdə ilk dəfə Naxçıvanda nizami ordu hissələri yaradıldı. Bir sözlə, Naxçıvan xalqımızın müstəqillik mübarizəsinin mərkəzinə çevrildi.

1991-ci il oktyabr ayının 18-də Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi. Xalqımız şərəfli mübarizə, çoxsaylı qurbanlar bahasına müstəqillik qazandı. Lakin bu, müstəqilliyi qorumaq uğrunda aparılacaq daha gərgin mübarizələrin başlangıcı idi. Təəssüf ki, müstəqilliyimizin ilkin mərhələsində –1991-1993-cü illərdə müstəqilliyin, ərazi bütövlüyünün qorunub saxlanılması, müstəqil iqtisadi, daxili və xarici siyasətin müəyyənləşdirilməsi kimi vacib məsələlərin həlli əvəzinə, ölkədə hərc-mərclik, özbaşınalıq, siyasi-iqtisadi tənəzzül baş alıb gedirdi. Xarici təcavüz, ölkə ərazisinin 20 faizinin işğalı, yüzlərlə insanın şəhid olması, qaçqın və məcburi köçkün problemləri, siyasi qarşıdurmalar son həddə çatmış, separatçı meyillər daha da güclənmişdi. Azərbaycan dünya xəritəsindən silinmək təhlükəsi qarşısında qalmışdı. Müstəqilliyimizin qorunub saxlanılması, qarşıya qoyulmuş məqsədlərə nail olmaq, milli həmrəylik və iradə nümayiş etdirmək üçün xalqı öz ətrafında sıx birləşdirə biləcək milli liderə böyük ehtiyac var idi.

Xalqın təkidli tələbi ilə 1993-cü il iyunun 15-də yenidən Azərbaycanda hakimiyyətə gələn dahi siyasətçi Heydər Əliyev ilk olaraq müstəqillik, Azərbaycançılıq ideologiyasını milli şüurda və psixologiyada, xalqın iradəsində bərqərar etməyə nail oldu, insanlarda Vətən, dövlətçilik, suverenlik, vətənpərvərlik hissiyyatları gücləndi, Azərbaycançılıq ümummilli ideologiya səviyyəsinə qaldırıldı. Azərbaycanda demokratikləşmə milli inkişafın vacib faktoru kimi dövlət siyasətinin əsas istiqamətinə çevrildi. 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası qəbul edildi, insan hüquqlarının, söz və məlumat azadlığının, vətəndaş cəmiyyəti institutlarının formalaşdırılması və inkişafına etibarlı zəmin yarandı.

Ümummilli liderin Azərbaycana rəhbərlik etdiyi 1993-cü ildən 2003-cü ilədək olan dövr dövlət müstəqilliyinin möhkəmləndirilməsi, əbədi, dönməz xarakter aldığı dövrdür. Bu dövr, birinci növbədə, onu göstərdi ki, lider, şəxsiyyət olmadan xalq öz siyasi iradəsini gerçəkləşdirə, müstəqilliyə qovuşa bilməz. ***"Mən həyatımdan keçərəm, ancaq Azərbaycanın müstəqilliyindən keçmərəm"***, – deyən ulu öndərimiz daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq, öz həyatı bahasına, gecəli-gündüzlü fədakar əməyi hesabına Azərbaycanı müstəqil dövlətə çevirmiş, dövlət müstəqilliyimizi daimi və əbədi etmişdir.

Bu dövrdə ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsip və təsisatlar yaradıldı. 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi" imzalanmaqla neft strategiyasının və davamlı iqtisadi inkişafın əsası qoyuldu. Xarici investisiyaların həcmi artdı, xalqın həyat səviyyəsi yaxşılaşdı. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində atəşkəsə nail olundu, torpaqlarımızın işğalının qarşısı alındı, ordu quruculuğuna başlandı.

Mövcud problemlərin tədricən aradan qaldırılması, iqtisadiyyatın inkişaf yoluna qədəm qoyması Azərbaycanın xarici siyasətdə də daha fəal, qətiyyətli addımlar atmasına şərait yaratdı. Ulu öndərin ardıcıl olaraq xarici ölkələrə səfərləri, beynəlxalq təşkilat nümayəndələri ilə keçirdiyi görüşlər nəticəsində Ermənistanın Azərbaycana təcavüzü, ölkəmizlə bağlı həqiqətlər dünya ictimaiyyətinə çatdırıldı. Ölkəmizin xarici siyasətinin əsas prinsip və istiqamətləri müəyyən edildi. Azərbaycanın beynəlxalq təşkilatlarda mövqeyinin möhkəmləndirilməsi, rolunun artırılması bütün dövlətlərlə qarşılıqlı maraqlara söykənən münasibətlərin inkişafını şərtləndirdi.

Ümummilli liderin siyasi irsinin layiqli varisi, ölkə başçısı cənab İlham Əliyev dövlət müstəqilliyimizi daha da möhkəmləndirərək Azərbaycanı regionun qüdrətli dövlətinə çevirmişdir. Ölkəmiz iqtisadi və demokratik inkişaf, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində böyük nailiyyətlər qazanmışdır. Yeni neft strategiyasının müvəffəqiyyətlə davam etdirilməsi, Azərbaycana xarici sərmayə qoyuluşunun artması, qeyri-neft sektoruna, regionların inkişafına yönəldilən investisiyanın ilbəil çoxalması, sahibkarlığın inkişafı, biznes mühitinin daha da yaxşılaşdırılması, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi dövlət başçısının iqtisadi siyasətinin əsasını təşkil edir.

Son illər ərzində Azərbaycan iqtisadiyyatı dəfələrlə artmış, ümumi daxili məhsula bərabər səviyyədə valyuta ehtiyatları yaradılmışdır. Sosial problemlərin uğurlu həlli nəticəsində bu gün Azərbaycanda işsizlik minimum səviyyəyə endirilmişdir. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərlərinin inşa edilməsi, "Cənub Qaz Dəhlizi" layihəsinin reallaşması, Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilməsi müstəqil ölkəmizin uzunmüddətli və dayanıqlı inkişaf strategiyasını təmin etmək istiqamətində atılan əhəmiyyətli addımlardır. Bu tədbirlər nəticəsində Azərbaycan bu gün Şərqlə Qərbi birləşdirən bütün optimal nəqliyyat-kommunikasiya xətlərinin, habelə neft-qaz boru kəmərlərinin keçdiyi əlverişli tranzit məkan kimi təkcə Avropa üçün deyil, həm də Uzaq Şərq üçün strateji əhəmiyyət daşıyır. Bu gün ölkəmiz bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin nümunəvi ev sahibi və təşkilatçısıdır. Avropa Şurasında, İslam Əməkdaşlıq Təşkilatında, BMT-nin Təhlükəsizlik Şurasında, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında, YUNESKO-da, digər nüfuzlu təşkilatlarda Azərbaycanın xüsusi yeri vardır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***"Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir"***.

Müstəqillik ən şirin nemətdir və ulu öndərimiz Heydər Əliyevin də dediyi kimi, onu qorumaq əldə etməkdən çətindir. Müstəqilliyi şərtləndirən mühüm amillərdən biri və başlıcası onun ərazi bütövlüyünün toxunulmazlığının təmin olunması, bunun üçün isə hər bir müstəqil dövlətin güclü ordusunun olmasıdır. Artıq Azərbaycanın müstəqil ordusu var və öz gücünə, silah və texnika ilə təchizatına görə dünyanın ilk ən güclü 50 ordusu sırasında özünə yer alıb. Sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələri Azərbaycan Silahlı Qüvvələrinin mövqelərinə və yaşayış məntəqələrinə müxtəlif silahlardan yenidən atəş açmaqla yeni təxribatlar törətmiş, bu təxribatların qarşısını almaq üçün əks-hücum əməliyyatlarına başlayan müstəqil ordumuz öz gücünü göstərməkdədir. Ötən bu müddət ərzində 1 şəhər, 1 qəsəbə, 50-dən artıq kəndin, bir neçə strateji yüksəkliyin alınması, düşmənin milyardlarla ölçülən məbləğlərdə döyüş texnikasının məhv edilərək sıradan çıxarılması da onu göstərir ki, müstəqil dövlətimizin qüdrətli ordusu istənilən tapşırığı yerinə yetirməyə hazırdır və Ermənistanın işğalı altında olan torpaqlarımızda da Azərbaycan bayrağının sancılacağı gün uzaqda deyil. Çünki bizim işimiz haqq işidir. Ölkə Prezidenti, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı cənab İlham Əliyevin vurğuladığı kimi: ***"Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq"***.

Qürur duyuruq ki, ölkəmiz müstəqil dövlət kimi yaşayır və inkişaf edir. Bu inkişaf ölkəmizin bütün guşələrində, o cümlədən onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da özünü göstərməkdədir. 30 ilə yaxındır, blokada vəziyyətində yaşamasına baxmayaraq, muxtar respublikamız muxtariyyətin, müstəqilliyin işığında böyük inkişaf yolu keçmişdir. Müstəqillik tariximizin ötən 20 ildən artıq bir dövründə muxtar respublikamız öz inkişaf yolunun ən dinamik və dayanıqlı inkişaf dövrünü yaşayır. Belə ki, qədim diyarımız muxtariyyət qazanmasından bu tərəfə heç vaxt indiki qədər inkişafa, uğurlara, nailiyyətlərə imza atmamışdır. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirmişdir. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin etmiş, iqtisadiyyatın dinamik inkişafına təkan vermiş və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl diyarına çevrilmişdir. Bu gün ərzaq təhlükəsizliyinin təmin olunduğu Naxçıvanda torpaqlar əkilir, tələbat yerli istehsal hesabına ödənilir. Muxtar respublikanın enerji təhlükəsizliyi təmin olunub, ən ucqar yaşayış məntəqəsində belə, sakinlər daimi elektrik enerjisindən, təbii qazdan istifadə edirlər. Naxçıvanın hərbi təhlükəsizliyi təmin olunub, düşmənlə üz-üzə olan sərhəd kəndlərində sakinlər təhlükəsiz şəraitdə yaşayırlar. Təbii ki, bütün bunlar Heydər Əliyev siyasi xəttinin və ulu öndərimizin əmanəti olan müstəqilliyimizin bəhrələridir.

*Müstəqil Azərbaycan ümummilli liderimiz Heydər Əliyevin şah əsəridir. Bu gün hər bir azərbaycanlı dövlət müstəqilliyini həm də ümummilli liderin ən dəyərli mirası olaraq göz bəbəyi kimi qorumalı, doğma Azərbaycanın inkişafı, çiçəklənməsi naminə səylə çalışmalıdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***"Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-siyasi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin bu gününün, sabahının və gələcəyinin yoludur".***

**"Şərq qapısı"**

# Muxtar respublika əhalisinin həyat səviyyəsi yüksəldilmişdir

*Birləşmiş Millətlər Təşkilatının 1992-ci il 22 dekabr tarixli Qərarı ilə 17 oktyabr dünyada Yoxsulluqla Beynəlxalq Mübarizə Günü kimi qeyd olunur.*

1993-cü ildə ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra siyasi böhran və iqtisadi tənəzzül qısa zaman ərzində aradan qaldırılmış, ictimai-siyasi sabitlik bərqərar olmuş, iqtisadiyyatda mövcud geriləmə dayandırılmış və yeni inkişaf mərhələsinin əsası qoyulmuşdur. Keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycanda ulu öndərin uğurla həyata keçirdiyi sosial-iqtisadi siyasət bütün sahələr üzrə inkişafı təmin etməklə yanaşı, yoxsulluğun azaldılması üçün də ciddi zəmin yaratmış, yoxsulluq səviyyəsinin minimum həddə endirilməsi istiqamətində ardıcıl tədbirlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yoxsulluqla mübarizə əsas istiqamət elan edilərək əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ölkədə yoxsulluğun tamamilə aradan qaldırılması istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən davamlı iqtisadi islahatlar iqtisadiyyatın dinamik inkişafına, makroiqtisadi göstəricilərin artımına, əhalinin rifah halının əhəmiyyətli dərəcədə yaxşılaşmasına əlverişli şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası bu sahədə görülən işlərin davamlılığını təmin etmiş, muxtar respublikanın iqtisadi cəhətdən daha da qüdrətlənməsinə yeni imkanlar yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" məşğulluq siyasətinin əsaslarını müəyyən etməklə, əhalinin məşğulluğunun artırılması istiqamətində həyata keçirilən tədbirlərin davamlılığının təmin edilməsində, müasir iqtisadi reallıqlar nəzərə alınmaqla əmək ehtiyatlarının əmək bazarına uyğunlaşdırılmasında və işaxtaranların, o cümlədən sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsində mühüm əhəmiyyətə malikdir. Dövlət proqramının icrası ilə bağlı muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə mütəmadi təhlillər aparılır, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatı müəyyənləşdirmək məqsədilə müəssisələrdə sorğular keçirilir. Bununla yanaşı, kompleks məşğulluq tədbirləri, o cümlədən əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunur.

Muxtar respublikada son 10 ildə sahibkarlıq fəaliyyəti genişlənmiş, yeni istehsal müəssisələri fəaliyyətə başlanmış, sənaye sahəsində 4,8, kənd təsərrüfatında 2,7, əsas kapitala yönəldilən investisiyalarda 2,5, informasiya və rabitə sektorunda 1,6 dəfə artım olmuşdur. Bu dövrdə 40 min 533 yeni iş yeri açılmış, əməkhaqqı 1,7 dəfə artmışdır. Sosial-iqtisadi sahədə həyata keçirilən islahatlar nəticəsində sosial müdafiəyə ehtiyacı olan insanlara, o cümlədən əlilliyi olan şəxslərə, şəhid ailələrinə, tənha ahıllara, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara göstərilən sosial xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlmiş, bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Əlilliyi olan şəxslərin reabilitasiyası məqsədilə də bir sıra tədbirlər görülmüşdür. Cari ilin 9 ayında 164 müvafiq kateqoriyalı şəxsə sanatoriya və müalicə pansionatlarına göndəriş verilmiş, 268 nəfər texniki reabilitasiya vasitələri ilə, 137 nəfər protez-ortopedik məmulatlarla təmin edilmişdir.

Aztəminatlı ailələrin sosial problemlərinin həlli, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması məqsədilə 2006-cı ildən ötən dövr ərzində aylıq gəlirləri ehtiyac meyarından aşağı olan ailələrə ünvanlı dövlət sosial yardımı ödənişi həyata keçirilmişdir. Ehtiyac meyarının davamlı olaraq artmasına baxmayaraq, sosial yardım alan əhalinin sayı ilbəil azalmışdır. Buna səbəb muxtar respublikada yaradılan yeni iş yerləri hesabına aztəminatlı ailələrdə əmək qabiliyyətli ailə üzvlərinin fəal əməyə və özünüməşğulluq proqramına cəlb olunmasıdır. Özünüməşğulluq proqramı icra olunan tarixdən 501 ailə bu proqrama cəlb edilmiş, verilmiş aktivlərdən nümunəvi istifadə edən vətəndaşlar mükafatlandırılmışdır.

Pandemiya dövründə karantin rejiminin tətbiq olunması ilə əlaqədar muxtar respublikada 9116 nəfər işsiz kimi qeydiyyata alınmış vətəndaşa 190,00 manat məbləğində birdəfəlik ödəmə təyin edilmişdir. 2020-ci ilin 9 ayı ərzində 2972 aztəminatlı ailəyə, o cümlədən 164 əcnəbi tələbəyə ehtiyaclarına uyğun sovqatlar verilmişdir. Bununla yanaşı, tənha ahılların cəmiyyətə inteqrasiyası da diqqət mərkəzində saxlanılmış, sosial könüllülərin iştirakı ilə onlarla mütəmadi görüşlər keçirilmiş, ehtiyaclarına uyğun sovqatlar verilmişdir.

Müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi də diqqət mərkəzində saxlanılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2020-ci ilin doqquz ayında 2 şəhid ailəsinə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıq imkanlarını qismən itirmiş 4 nəfərə və hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını qismən itirmiş 1 nəfərə yeni mənzillər, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı sağlamlıq imkanlarını qismən itirmiş 7 nəfərə, Çernobıl Atom Elektrik Stansiyasında baş vermiş qəzanın aradan qaldırılmasında iştirak edən 5 nəfərə, hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 10 nəfərə isə minik avtomobilləri təqdim olunub.

Muxtar respublikada iqtisadi və sosial əhəmiyyətli infrastruktur layihələrinin icrası, məşğulluq səviyyəsinin yüksəldilməsi, sosial xidmətlərin həcminin və keyfiyyətinin artması, makroiqtisadi sabitliyin ilbəil qorunub saxlanması bütün sahələrin davamlı inkişafını bundan sonra da təmin edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Müstəqillik Günü ilə bağlı tədbirlər keçirilib

*AMEA Naxçıvan Bölməsində "Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir" mövzusunda elmi konfrans keçirilib.*



Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" 1991-ci il oktyabrın 18-də qəbul edilsə də, 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin Azərbaycanda yenidən hakimiyyətə qayıdışı ilə siyasi-iqtisadi böhran aradan qaldırıldı, Milli Ordu yaradıldı, atəşkəsə nail olundu. Ümummilli liderin qətiyyətli qərarları ilə vətəndaş qarşıdurmasına son qoyuldu, ölkənin parçalanmasına yönəldilmiş təhdidlərin qarşısı alındı. Düzgün daxili və xarici siyasət həyata keçirildi, əsaslı iqtisadi islahatlar inkişafa səbəb oldu.

Vurğulanıb ki, ulu öndər Heydər Əliyevin milli maraqlara əsaslanmaqla həyata keçirdiyi çoxşaxəli siyasi strategiya bu gün onun layiqli davamçısı Prezident cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Bu siyasi xətt Azərbaycan dövlətçiliyinin inkişafına, ölkənin milli maraqlarının müdafiəsinə və iqtisadiyyatın inkişaf etdirilməsinə misilsiz töhfələr verir. Akademik Milli Ordumuzun 30 ildən sonra Qarabağda zəfər tarixi yazdığını deyərək, milli tariximizin gələcək nəsillərə əsaslı şəkildə çatdırılması istiqamətində ziyalıların, o cümlədən də bölmə əməkdaşlarının üzərinə düşən vəzifələri xüsusi qeyd edib.

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri, AMEA-nın müxbir üzvü Vəli Baxşəliyevin, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun, tarix üzrə fəlsəfə doktoru, dosent Toğrul Xəlilovun və tarix üzrə fəlsəfə doktoru Yaşar Rəhimovun məruzələri dinlənilib, virtual sərgi nümayiş etdirilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

* * *

*Naxçıvan Dövlət Universitetində 18 oktyabr – Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Gününə həsr olunmuş tədbir keçirilib. İncəsənət fakültəsinin sərgi salonunda əlamətdar tarixi günə həsr edilmiş sərgiyə baxış olub.*



Fakültənin akt zalında davam edən tədbirdə Azərbaycanın dövlət müstəqilliyi və ərazi bütövlüyü uğrunda qurban gedən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Fakültənin xor kollektivinin ifasında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev bildirib ki, müstəqilliyin qorunub saxlanılması onun əldə edilməsindən çətindir. Rektor ulu öndərin əsasını qoyduğu dövlət müstəqilliyinin onun sadiq davamçısı Prezident cənab İlham Əliyev tərəfindən daha da möhkəmləndirildiyini diqqətə çatdırıb. Rektor Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qazandığı qələbələrin hər bir azərbaycanlıya çox böyük sevinc bəxş etdiyini qeyd edib. Rektor ölkənin müstəqilliyinin daha da möhkəmləndirilməsi və gələcəyinin təmin edilməsində savadlı, bacarıqlı, Vətənini, xalqını sevən gənclərə daim ehtiyac olduğunu vurğulayıb.

Sonra Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Elçin Zamanov çıxış edib, ədəbi-bədii kompozisiya təqdim olunub.

**Səadət ƏLİYEVA**

* * *



*"Naxçıvan" Universitetində Müstəqillik Gününə həsr olunmuş "Heydər Əliyev müstəqil Azərbaycanın memarıdır" adlı konfrans keçirilib.*

Konfransı giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Nurlana Əliyeva açaraq bildirib ki, xalqımızın ən böyük sərvəti olan dövlət müstəqilliyimizin əldə edilməsi hər bir Azərbaycan vətəndaşı üçün müstəsna əhəmiyyət daşıyır. Dövlət müstəqilliyimiz 1991-1993-cü illərdə süquta uğramaq təhlükəsi ilə üz-üzə idi. Məhz ümummilli lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkəmiz parçalanmaq, məhv olmaq təhlükəsindən xilas oldu, ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatda köklü islahatlara, dövlət quruculuğu prosesinə başlanıldı.

Vurğulanıb ki, ulu öndərin müdrik siyasəti bütün sahələrdə, xüsusilə də ərazi bütövlüyümüzün qorunması, ordu quruculuğu istiqamətində layiqincə davam etdirilir. Şanlı Azərbaycan Ordusu Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın işğal olunmuş torpaqlarını düşmən tapdağından azad edir.

Sonra Ümumi tarix kafedrasının müəllimləri professor Əziz Novruzlunun, Rəna Qurbanovanın məruzələri dinlənilib. Tələbələr adından İqtisadiyyat fakültəsinin İqtisadiyyat ixtisasının IV kurs tələbəsi Məhərrəm Həsənov çıxış edib.

Sonda 18 oktyabr – Müstəqillik Gününə həsr olunmuş "Axtar-tap" intellektual oyununun qalibləri mükafatlandırılıb, videoçarx nümayiş olunub.

**Seyfur HACIMURADOV**

## Hüquqi maarifləndirmə günün tələbidir

*<u>**Sual:**</u> İnternet informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınmaması hansı məsuliyyətə səbəb olur?*

**Cavab**: Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-1-ci maddəsinə əsasən internet informasiya ehtiyatının və onun domen adının sahibi və ya informasiya-telekommunikasiya şəbəkəsinin istifadəçisi tərəfindən internet informasiya ehtiyatında yayılması qadağan edilən informasiyanın yerləşdirilməsi, habelə belə informasiyanın yerləşdirilməsinin qarşısının alınması ilə bağlı qanunvericiliyin tələblərinin pozulmasına, yəni informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunla yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verilməsinə və internet informasiya ehtiyatında yerləşdirilmiş yayılması qadağan edilən informasiyanın götürülməsi ilə bağlı "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunla müəyyən edilmiş tədbirlərin görülməməsinə görə fiziki şəxslər beş yüz manatdan min manatadək, vəzifəli şəxslər min manatdan min beş yüz manatadək məbləğdə cərimə edilir, yaxud işin hallarına görə, xətanı törədənin şəxsiyyəti nəzərə alınmaqla, bir ayadək müddətə inzibati həbs tətbiq edilir, hüquqi şəxslər min beş yüz manatdan iki min manatadək məbləğdə cərimə edilir.

İnternet informasiya ehtiyatı "Yayılması qadağan edilən informasiyanın yerləşdirildiyi informasiya ehtiyatlarının Siyahısı"na daxil edildikdən dərhal sonra host provayder və internet provayderlər tərəfindən həmin internet informasiya ehtiyatına müraciətin məhdudlaşdırılmamasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min manatadək, hüquqi şəxslər iki min manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilir.

Qeyd olunur ki, informasiya ehtiyatında və ya informasiya-telekommunikasiya şəbəkəsində "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Qanunla yayılması qadağan edilən informasiyanın yerləşdirilməsinə yol verilməsinə görə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda inzibati məsuliyyət tətbiq edilir.

***Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsi***

### İtmişdir

"Elnarə-79" Məhdud Məsuliyyətli Cəmiyyətinə verilmiş reyestrdən çıxarış itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz rayonu, Kükü kəndində yaşamış Məmmədova Teyfə Şirin qızının adına verilmiş JN-230A və JN-230B nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

* * *

Şahbuz şəhərində yaşayan Bağırov Əkrəm Hüseyn oğlunun adına verilmiş JN-120A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Hacıyeva Ruhəngiz Etibar qızının adına olan 104013004221 reyestr nömrəli torpağın planı və ölçüsü, MH-0018336 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 777